Kim İslamda yaxşı işlər görərsə, cahiliyyədə etdiklərinə görə hesaba çəkilməz, kim İslamda pis işlər görərsə, cahilikdə və İslamda etdiyi əməllərə görə hesaba çəkilər

İbn Məsuddan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə demişdir: Bir kişi dedi: "Ey Allahın Rəsulu, cahiliyyə zamanında etdiyimizə görə hesaba çəkiləcəyikmi?". Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cavab verərək buyurdu: "Kim İslamda yaxşı işlər görərsə, cahiliyyədə etdiklərinə görə hesaba çəkilməz, kim İslamda pis işlər görərsə, cahilikdə və İslamda etdiyi əməllərə görə hesaba çəkilər".
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) İslama daxil olmağın fəzilətini bəyan edir. Kim İslamı qəbul edib yaxşı əməllər edərsə, əməllərində sadiq və ixlaslı olarsa, cahiliyyə dövründə etdiyi günahlara görə hesaba çəkilməz. Kim də münafiq olar yaxud dinindən dönərsə, həm küfrdə olduğu dövrdə, həm də İslamda olduğu zaman etdiyi əməllərə görə hesaba çəkiləcəkdir.

https://sunnah.global/hadeeth/az/show/65002